**Məxfilik bəyannaməsi**

Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxs AZS ISO/IEC 17065-1:2021 Standartının (Uyğunluğun qiymətləndirilməsi - Məhsullar, proseslər və xidmətlər üzrə sertifikatlaşdırma orqanlarına dair tələblər) 4.5-ci bəndinin və AZS ISO/IEC 17021-1:2021 Standartının (Uyğunluğun qiymətləndirilməsi — İdarəetmə sistemləri üzrə audit və sertifikatlaşdırma xidmətlərini göstərən orqanlara dair tələblər) 8.4-cü bəndinin tələblərini nəzərə alaraq aşağıdakıları bəyan edir:

- Həyata keçirəcəyi bütün sertifikatlaşdırma fəaliyyətlərində "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununun və bu sahədə digər qanunvericilik aktlarının tələblərinə riayət edəcəyini;
- Komitələr və onun adından çıxış edən şəxslər də daxil olmaqla, bütün səviyyələrdə sertifikatlaşdırma fəaliyyəti zamanı əldə edilmiş məlumatların məxfiliyini qorumaq üçün mövcud qanunvericiliyinə əməl edəcəyini;
- Sertifikatlaşdırılmış müştəri və ya xüsusi məhsul haqqında məlumatın müvafiq müştərinin razılığı olmadan üçüncü şəxslərə verilməyəcəyini və bu məlumatların qanunvericiliyə uyğun şəkildə üçüncü şəxslərə açıqlandığı halda, müştəriyə məlumat veriləcəyini;
- Həyata keçirəcəyi bütün sertifikatlaşdırma xidmətlərindən əldə edilən məxfi məlumatların və mülkiyyət hüquqlarının qorunmasını təmin edəcəyini;
- Müştəri haqqında başqa mənbələrdən (şikayətçi, tənzimləyici orqanlar və s.) əldə edilən məlumatların, onların mənbələrinin, bütün fərdi məlumatların məxfi saxlanılacağını və mənbə tərəfinin razılığı olmadıqda müştəri ilə paylaşılmayacağını.

**Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu**
**publik hüquqi şəxsin**
**İdarə Heyətinin sədri** **Əli Nəbiyev**

____________________________
Tarix